# Azərbaycan demokratiyaya sadiqdir

## Dövlətimizin başçısı İlham Əliyev ölkədə demokratik təsisatların uğurla fəaliyyət göstərdiyini, bütün azadlıqların təmin edildiyini bildirir



“Düşünürəm ki, siyasi və iqtisadi islahatların paralel aparılması, sürətli transformasiya, sabitlik proqnozlaşdırıla bilən iqtisadi və sosial inkişafı təmin etmişdir. Bu gün Azərbaycan bütün azadlıqlardan faydalanır, bizim cəmiyyət azaddır, bizdə bütün azadlıqlar təmin edilir - media azadlığı, azad, senzurasız internet, ifadə və toplaşma azadlığı, din azadlığı var. Siyasi transformasiya davam edir. Biz bundan sonra da hüquq sistemimizin təkmilləşdirilməsi üzərində çalışmalıyıq. Çünki ədalət- cəmiyyətdə ədalət, ailədə ədalət və ümumiyyətlə, hər yerdə ədalət istənilən cəmiyyətin normal inkişafı və sabitliyi üçün ən əsas elementlərdəndir. Həmçinin Azərbaycan özünün dünya xəritəsindəki yerini müəyyən edə bilmişdir. Bizim ölkəmiz həm Avropa Şurasının, həm də İslam Əməkdaşlıq Təşkilatının üzvüdür. Biz dünyada çox az sayda dövlətlərdənik ki, hər iki təsisatın üzvüyük.” Dövlətimizin başçısı İlham Əliyevin bu fikirləri Azərbaycanın demokratik inkişafının beynəlxalq münasibətlər sistemində nə kimi uğurlara yol açdığına bir daha işıq salır.

Demokratik, hüquqi, dünyəvi dövlət quruculuğu yolunu tutan ölkəmiz atdığı hər addımı ilə bir daha bu reallığı təsdiqləyir ki, görülən işlər hansısa təşkilata, dövlətə xoş gəlmək deyil, Azərbaycanın uğurlu gələcəyi üçündür. Bu əsasda ölkə Prezidenti İlham Əliyev böyük inam və qətiyyətlə bildirir ki, Azərbaycan bundan sonra da demokratiyanın inkişafı yolu ilə gedəcək: “Bu, bizim şüurlu seçimimizdir. Biz bunu kiminsə xoşuna gəlmək üçün yox, ona görə edirik ki, bu, cəmiyyət üçün lazımdır. Mən dəfələrlə demişəm, siyasi islahatlar iqtisadi islahatlarla paralel şəkildə aparılmalıdır ki, Azərbaycanın dayanıqlı inkişafı təmin edilsin.” Ayrı-ayrı ölkələrdə iqtisadi, yaxud demokratik inkişafın birtərəfliliyinin təhlili əsasında bu reallıq da qeyd edilir ki, yalnız iqtisadi və siyasi islahatların paralelliyi dayanıqlı inkişafı təmin edir.

Dövlətimizin başçısı İlham Əliyevin bildirdiyi kimi, elə ölkələr var ki, demokratik inkişaf yüksək səviyyədədir, amma iqtisadi tərəqqidən danışmaq mümkün deyil. Elə ölkələr də var ki, əksinə, iqtisadi inkişaf diqqət çəkən olsa da, demokratik inkişaf görünməzdir. Azərbaycanın bu gün inkişaf modelini dünya ölkələri üçün cəlbedici edən amillərdən biri məhz iqtisadi və demokratik inkişaf səviyyəsi arasında heç bir fərqin olmamasıdır. Bu da reallıqdır ki, bu və ya digər ölkə ilə iqtisadi əlaqələrin qurulmasında maraqlı olan dövlətlər ilk olaraq həmin ölkədə demokratik islahatların hansı səviyyədə həyata keçirilməsinə, ən əsası sabitliyə diqqət yetirir. Azərbaycanın müstəqilliyinin ilk illərində iqtisadi böhran yaşamasını şərtləndirən əsas amillərdən biri məhz ölkədə ictimai-siyasi durumun gərginliyi idi. Əməkdaşlıqda maraqlı olan dövlətlər ölkə iqtisadiyyatına yatıracaqları investisiyaların təhlükəsizliyinə tam əmin olmadıqlarından tərəddüd edirdilər. Azərbaycanın bu gününü müstəqilliyimizin ilk illəri ilə müqayisə etdikdə bu fərqi daha aydın şəkildə görmək olur. Bu gün ölkə iqtisadiyyatına yatırılan investisiyaların həcmi 180 milyard dollara çatıb. Bir sözlə, 1993-cü ildən bu günə qədərki dövrün təhlili əsasında ictimai-siyasi sabitliyin ölkənin hərtərəfli inkişafında nə kimi rol oynadığını aydın görmək olur. 1995-ci ildə ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə işlənib hazırlanan və referendum yolu ilə qəbul olunan milli Konstitusiyamız insan hüquqlarının, fikir plüralizminin, söz və məlumat azadlığının, vətəndaş cəmiyyəti institutlarının formalaşdırılması və inkişafına etibarlı zəmin yaratdı. Sənəddə əksini tapan maddələrin üçdəiki hissəsinin insan hüquq və azadlıqlarının qorunmasına xidmət etməsi də bu diqqət və qayğıdan irəli gəlir. Son 12 ildə Heydər Əliyev siyasi kursunu hər sahədə uğurla davam etdirən Prezident İlham Əliyev daim çıxışlarında demokratikləşmə prosesinin bir şüar, niyyət olmadığını, ölkənin hərtərəfli inkişafının əsası olduğunu önə çəkərək, bu sahədə həyata keçirdiyi biri-birindən əhəmiyyətli islahatlarla Azərbaycanın beynəlxalq aləmdə demokratik ölkə imicinin möhkəmləndirilməsinə əsas yaradır. İnsan hüquq və azadlıqlarının qorunması, yeni müdafiə mexanizmlərinin müəyyənləşdirilməsi dövlətin siyasətində insan amilinə verilən dəyərin göstəricilərindəndir. O da məlumdur ki, Prezident İlham Əliyevin 18 iyun 2007-ci il tarixli “Azərbaycan Respublikasında İnsan hüquqları gününün təsis edilməsi haqqında” Sərəncamı bu sahəyə böyük diqqət yetirildiyini bir daha təsdiqlədi. Həmçinin Prezident İlham Əliyevin 27 dekabr 2011-ci il tarixli Sərəncamı ilə “Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramı” təsdiq olunub. Bu gün ölkəmiz demokratik təsisatlarla, beynəlxalq seçki institutları ilə əməkdaşlıq edir, sivil qanunların respublikamızda tətbiqi üçün təcrübə mübadiləsi aparılır. Siyasi kampaniyalarda vətəndaşlara sərbəst seçim hüququnun verilməsi, şəffaf seçkilərin təşkili, obyektivliyin təminatı demokratik dəyərlərə sadiqlik, Azərbaycan təcrübəsinin təbliği kimi dəyərləndirilir. Müasirləşməni, yeniləşməni dövlət siyasətinin əsası kimi qəbul edən dövlətimiz qəbul olunan qanunları, o cümlədən milli Konstitusiyamızı dəyişməz qəbul etməyərək, daim təkmilləşdirməyə, orada yeniliyin öz əksini tapmasına səy göstərir. 2009-cu ildə ölkədə keçirilmiş və əhali tərəfindən dəstəklənmiş Konstitusiyaya əlavə və dəyişiklikləri nəzərdə tutan referendumda da məqsəd və ən çox diqqət yetirilən sahə insanların azad, firavan, sərbəst yaşaması üçün təkmil qanunvericilik bazasını dövrün tələbinə, müasirləşən və dünyaya sürətli inteqrasiya yolu ilə irəliləyən Azərbaycanın inkişafına uyğunlaşdırmaq, zənginləşdirmək idi.

Bir faktı qeyd etmək kifayətdir ki, bu gün Azərbaycanın demokratiya təcrübəsi təqdir olunur və nümunə göstərilir. Əsas budur ki, reallığı olduğu kimi qəbul edib, düzgün dəyərləndirmə aparmağı bacaraq. Bu günümüzə obyektiv yanaşma daim təhlillər aparmağı bir zərurətə çevirir. Bu uğurlar fonunda dağıdıcı ünsürlərin istinad etdikləri beynəlxalq təşkilatların hesabatlarının qərəzliliyi daha aydın nəzərə çarpır. Dövlətimizin başçısı İlham Əliyev daim çıxışlarında bildirir ki, bu hücumların səbəbləri heç də insan hüquqları, demokratiya, xüsusən də geopolitik məsələlərlə bağlı deyil. Bu iddialar Azərbaycanı sevməyən, onu gözdən salmağa çalışan maraqlı qüvvələr tərəfindən təşkil olunur. “Amnesty International” kimi təşkilatların hesabatlarında guya ölkəmizdə 19 siyasi məhbusun olmasının yer alması da bir çox məqamlara aydınlıq gətirir. Çünki bu təşkilatların “istinad mənbəyi” daxili bədxahlarımızdır ki, onların beynəlxalq təşkilatlara ünvanladıqları müraciətlərdə “siyasi məhbus”ların sayı müxtəlif tərkibdə göstərilir. Daxili və xarici bədxahlarımıza ən tutarlı cavab dövlətimizin başçısı İlham Əliyevin Avropa Şurası Parlament Assambleyasında “siyasi məhbus”la bağlı suala verdiyi cavabdır: “Azərbaycanda siyasi məhbus yoxdur və sizin qeyd etdiklərinizin hamısı yanlış informasiya əsasındadır, ya da sizin Azərbaycana qarşı qərəzli mövqeyinizdən irəli gəlir... Əfsuslar olsun ki, Azərbaycan məqsədyönlü təxribatlara məruz qalıb. Biz bunların mənbəyini və səbəbini bilirik. Bunun insan haqları və demokratiya ilə heç bir əlaqəsi yoxdur. Bu, geosiyasi məsələdir. Çox güman ki, sizin kağız üzərindən oxuduğunuz sualı sizə Azərbaycana hücum etmək marağı olan tərəflər veriblər.”

“Human Rights Watch”, “Amnesty International”, “Freedom House” kimi təşkilatların mütəmadi olaraq ölkəmizə qarşı qərəzli mövqeyi ortaya qoyan hesabatlarla çıxış etmələri, daxili bədxahlarımızın isə bunları özləri üçün “istinad mənbəyi” qəbul etmələri heç zaman diqqətdən yayınmır. Bu baxımdan ki, işbirliyindən qaynaqlanan bu dəstəklər “mövsümi” xarakter daşıyır. Yəni beynəlxalq əhəmiyyətli tədbirlər, yaxud seçkilər olmadığı ərəfələrdə özlərinə “istirahət elan edən” bu ünsürlər mühüm hadisələr zamanı bütün “fəaliyyətlərini” Azərbaycan reallıqlarını inkar etməyə yönəldirlər. Onların açıqlamalarına, eyni zamanda demokratiyaya verdikləri “dəstəyə” diqqət yetirdikdə ağı qaradan necə seçdiklərini görür, marağın həqiqəti arxa plana keçirdiyi özünü qabarıq şəkildə büruzə verir. Dünya nə zamanadək ikili siyasətdən yaxa qurtara bilməyib, “mövsümi” təbliğatlar davamlı, bu və ya digər dövlətin, təşkilatın mövqeyinə inamsızlıq qaçılmaz olacaq. Dövlətimizin başçısı İlham Əliyevin Mətbuat Şurasının yeni binasının açılışında nitqi zamanı səsləndirdiyi fikirləri bir daha yada salmaq istərdik: “Ədalət ən böyük meyardır: Əlbəttə ki, Azərbaycan cəmiyyətində problemlər var. Biz bu problemləri bilirik. Ancaq hər bir ölkəyə vahid meyarlarla yanaşılmalıdır. Azərbaycanın yerləşdiyi bölgədə, qonşuluqda yerləşən ölkələrdə problemlər bizim problemlərdən az deyil. Bəzi hallarda o məsələlərə göz yumulur, yaxud da ki, yanlış məlumat təqdim olunur. Azərbaycanda isə xırda məsələ ilə bağlı böyük hay-küy salınır. Sanki kimsə istəyir ki, Azərbaycanın reputasiyasına zərbə vursun.”

Ölkəmizdə müqayisəolunmaz dərəcədə xırda bir məsələ baş verəndə, bunun dərhal beynəlxalq media orqanlarına çıxarıldığını bildirən dövlətimizin başçısı İlham Əliyevin qeyd etdiyi kimi, bəzi qüvvələr Azərbaycanı antidemokratik ölkə kimi təqdim etmək üçün ciddi cəhdlər göstərirlər: “Bu bizə qarşı aparılan məqsədyönlü və ədalətsiz mübarizədir. Biz bu mübarizəyə hazırıq və bu mübarizəyə qarşı ancaq öz siyasətimizi, sözün yaxşı mənasında, inadkarlığımızı qoymalıyıq və qoyuruq ki, Azərbaycanın maraqlarını müdafiə edək.”

Azərbaycanın bu gün inkişafın hansı səviyyəsində olduğu göz qabağındadır. Beşinci çağırış Milli Məclisin ilk iclasında cənab İlham Əliyev ayrı-ayrı sahələrdə qazanılan uğurları və qarşıdakı illərdə qarşıda duran vəzifələri açıqlamaqla bir daha bildirmişdir ki, 1 noyabr parlament seçkilərində Azərbaycan demokratiya yolunda növbəti uğurlu addım atmışdır və bir daha sübut etmişdir ki, Azərbaycan demokratiyaya sadiqdir: “Azərbaycanda bütün demokratik təsisatlar uğurla fəaliyyət göstərir, ölkədə bütün azadlıqlar - söz azadlığı, siyasi fəaliyyət azadlığı, mətbuat azadlığı, sərbəst toplaşma azadlığı, vicdan-din azadlığı təmin edilir, bütün azadlıqlar mövcuddur. Bu seçkilərdə əlbəttə ki, bütün bu azadlıqlar bir daha özünü büruzə vermişdir.”

**Yeganə Əliyeva,**
***“İki sahil”***